Caucasus Journal of Humanities and Social Sciences

Qafqaz Hümanitar və Sosial Elmlər Jurnalı

p-ISSN: 3135-9981 e-ISSN: 3135-999X

November 2026; volume: 1; issue: 1; serial: 1 Noyabr 2026; cild: 1; say: 1; nömrə: 1

ÇOXMƏNALILIĞIN YARANMA MEXANİZMLƏRİ VƏ DİLİN SEMANTİK İNKİŞAFINDA ROLU

https://doi.org/10.69043/3bzf5719

Fidan YUSİFOVA

Azərbaycan Dövlət Pedagoji Universiteti
Azerbaijan State Pedagogical University

Baku | Azerbaijan
yusifovaf@gmail.com
https://orcid.org/0000-0002-3906-9844

Research article **Araşdırma əqaləsi**

Date of Submission: 29.09.2026
Date of Acceptance: 29.10.2026
Date of Publication: 20.11.2026
Plagiarism Checks: Yes
Conflicts of Interest: The author(s) has no conflict of interest to declare.
Ethical Statement: It is declared that scientific and ethical principles have been followed while carrying out and writing this study and that all the sources used have been properly cited.

Copyright & License: Authors publishing with the journal retain the copyright to their work licensed under the CC BY-NC 4.0.

Müraciət tarixi: 29.09.2026
Qəbul tarixi: 29.10.2026
Nəşr tarixi: 20.11.2026
Plagiat yoxlaması: Bəli
Maraqların toqquşması: Bildirilməyib.

Etik bəyan: Bu çalışmanın ərsəyə gəlməsi prosesində elmi və etik prinsiplərə riayət olunduğu və istifadə olunan bütün mənbələrin ədəbiyyat bölməsində göstərildiyi müəllif (lər) tərəfindən bəyan olunmuşdur.

Müəllif hüquqları: Müəlliflər jurnalımızda dərc olunan məqalələrinin müəlliflik hüquqlarına CC-BY-NC 4.0. lisenziyası əsasında sahibdirlər.

Citation/İstinad: Yusifova, F. (2026). Çoxmənalılığın yaranma mexanizmləri və dilin semantik inkişafında rolu. *Caucasus Journal of Humanities and Social Sciences*, 1(1), 83-92. https://doi.org/10.69043/3bzf5719

Çoxmənalılığın yaranma mexanizmləri və dilin semantik inkişafında rolu

Xülasə: Məqalədə leksik sistemin mühüm kateqoriyalarından biri olan çoxmənalılığın yaranması, foralaşması, inkişaf mexanizmləri və dilin semantik sistemində rolu kompleks şəkildə araşdırılır. Çoxmənalılıq bir sözün semantik quruluşunda bir-biri ilə müəyyən məna əlaqəsi olan bir neçə leksik-semantik variantın formalaşması kimi səciyyələndirilir. Bu hadisə dilin yalnız lüğət tərkibinin zənginləşməsinə deyil, həm də mövcud dil vahidlərinin yeni nominativ və kommunikativ ehtiyaclara uyğun şəkildə funksional imkanlarının genişlənməsinə şərait yaradır. Tədqiqatın əsas məqsədi çoxmənalılığın meydana gəlməsini şərtləndirən amilləri müəyyənləşdirmək, onun yaranma mexanizmlərini sistemləşdirmək və semantik inkişaf prosesindəki rolunu elmi-nəzəri baxımdan əsaslandırmaqdır. Araşdırmada söz mənasının dəyişməsinə və yeni mənaların formalaşmasına təsir göstərən ictimai, tarixi, mədəni, məntiqi və dilxarici amillər nəzərdən keçirilir. Çoxmənalılığın yaranmasında məcazlaşma, metonimiyalaşma, məna genişlənməsi, məna daralması, funksional yaxınlıq, əşya və hadisələr arasındakı oxşarlıq, assosiativ əlaqələr və insan təfəkkürünün ümumiləşdirici xüsusiyyətlərinin mühüm rol oynadığı müəyyənləşdirilir. Sözün ilkin nominativ mənasının müxtəlif kontekstlərdə yeni məna çalarları qazanması və zaman keçdikcə həmin mənaların leksik-semantik variant kimi sabitləşməsi çoxmənalılığın formalaşmasının əsas mexanizmlərindən biri kimi izah edilir. Bu baxımdan çoxmənalılıq dilin statik deyil, daim dəyişən və inkişaf edən semantik sisteminin göstəricisi kimi qiymətləndirilir. Məqalədə çoxmənalılığın sinxronik və diaxronik aspektləri də müqayisəli şəkildə şərh olunur. Tədqiqatın metodoloji əsasını sistemli yanaşma, təsviri, müqayisəli, semantik və kontekstual təhlil metodları təşkil edir. Məqalədə çoxmənalılıq dilin leksik-semantik sisteminin mühüm hadisəsi kimi nəzərdən keçirilir, sözlərin məna strukturunda baş verən dəyişikliklər və yeni leksik-semantik variantların formalaşması elmi-nəzəri baxımdan təhlil olunur. Təsviri metod vasitəsilə çoxmənalı sözlərin əsas və törəmə mənaları, onların semantik xüsusiyyətləri və qarşılıqlı əlaqələri müəyyənləşdirilir.

Açar sözlər: çoxmənalılıq, polisemiya, semantik inkişaf, leksik məna, məcazlaşma.

Mechanisms of polysemy formation and its role in the semantic development of language

Abstract: The article comprehensively examines the emergence, formation, development mechanisms, and role of polysemy, one of the important categories of the lexical system, in the semantic system of language. Polysemy is characterized as the formation of several lexical-semantic variants within the semantic structure of a word that are interconnected through certain semantic relations. This phenomenon not only

contributes to the enrichment of the vocabulary of a language but also enables the functional potential of existing linguistic units to expand in accordance with new nominative and communicative needs. The main purpose of the study is to identify the factors underlying the emergence of polysemy, systematize its formation mechanisms, and substantiate its role in the process of semantic development from a theoretical and scholarly perspective.The study considers social, historical, cultural, logical, and extralinguistic factors that influence changes in word meaning and the formation of new meanings. It determines that metaphorization, metonymization, semantic broadening, semantic narrowing, functional proximity, similarity between objects and phenomena, associative relations, and the generalizing characteristics of human cognition play an important role in the emergence of polysemy. The acquisition of new shades of meaning by the primary nominative meaning of a word in different contexts and the subsequent stabilization of these meanings as lexical-semantic variants over time are explained as one of the principal mechanisms in the formation of polysemy. From this perspective, polysemy is regarded as an indicator of the dynamic and continuously developing nature of the semantic system of language rather than as a static phenomenon. The article also provides a comparative analysis of the synchronic and diachronic aspects of polysemy. From a synchronic perspective, the system of meanings possessed by a word at a particular point in time, the semantic relations among these meanings, and their interpretation by contemporary language users are taken into consideration.

Keywords: polysemy, semantic development, lexical meaning, metaphorization, semantic structure.

Giriş

Dil daim dəyişən və inkişaf edən mürəkkəb ictimai hadisədir. Bu inkişaf prosesində dilin bütün səviyyələrində müəyyən yeniliklər meydana çıxır və xüsusilə leksik-semantik sistemdə baş verən dəyişikliklər diqqəti cəlb edir. Sözün yalnız fonetik tərkibi və qrammatik xüsusiyyətləri deyil, onun ifadə etdiyi məna da tarixi prosesin təsiri ilə yenilənir. Bu baxımdan çoxmənalılıq dilin semantik inkişafını əks etdirən əsas hadisələrdən biri hesab edilə bilər. İnsanların ictimai fəaliyyətinin genişlənməsi, yeni əşyaların, hadisələrin və anlayışların meydana çıxması dil qarşısında yeni nominasiya ehtiyacları yaradır (Abdullayev, 1985, s. 34). Lakin hər yeni anlayış üçün ayrıca söz yaratmaq dilin lüğət sisteminin həddindən artıq yüklənməsinə səbəb ola bilər. Buna görə də dil mövcud leksik vahidlərin semantik imkanlarından istifadə edir. Artıq mövcud olan söz müxtəlif əlaqələr və oxşarlıqlar əsasında yeni anlayışların ifadəsində iştirak etməyə başlayır. Beləliklə, bir sözün semantik yükü genişlənir və onun çoxmənalı xüsusiyyəti formalaşır. Çoxmənalılığın yaranması təsadüfi və ani proses deyil. Sözün yeni məna qazanması müəyyən tarixi, sosial və məntiqi əsaslara söykənir. Əşya və hadisələr arasında mövcud olan oxşarlıq, yaxınlıq, funksional əlaqə

və ümumi xüsusiyyətlər bir sözün başqa bir anlayışı ifadə etməsinə imkan yaradır. Bu baxımdan polisemiya dilin nominativ imkanlarının genişlənməsində mühüm rol oynayır.

Çoxmənalılığın mahiyyəti və yaranma xüsusiyyətləri

Çoxmənalılıq eyni leksik vahidin bir-biri ilə semantik baxımdan əlaqəli olan bir neçə məna ifadə etməsi ilə səciyyələnir. Burada əsas məsələ müxtəlif mənaların yalnız eyni fonetik formaya malik olması deyil, onların vahid semantik mərkəz ətrafında əlaqələnməsidir. Başqa sözlə, çoxmənalı sözün mənaları arasında müəyyən məntiqi və semantik bağlılıq mövcud olur.Sözün çoxmənalı xarakter qazanması onun ilkin mənasının dəyişməsi və ya tamamilə itməsi demək deyil. Əksər hallarda əvvəlki məna öz funksiyasını qoruyur, yeni mənalar isə həmin semantik baza əsasında meydana çıxır. Bu səbəbdən çoxmənalı sözün semantik quruluşunda əsas və törəmə mənalar arasında qarşılıqlı əlaqə müşahidə olunur. Çoxmənalılığın formalaşmasında insan təfəkküründün ümumiləşdirici xüsusiyyəti mühüm əhəmiyyət daşıyır. İnsan ətraf aləmdəki obyekt və hadisələri ayrı-ayrılıqda deyil, onların ümumi və oxşar xüsusiyyətləri əsasında da dərk edir (Kərimova, 2020, s. 72). Müəyyən əlamətin müxtəlif obyektlərdə müşahidə olunması həmin obyektlərin eyni sözlə adlandırılmasına şərait yarada bilər. Beləliklə, bir leksik vahidin semantik tutumu genişlənir (Abdullayev, 2013, s. 45). Çoxmənalılığın yaranmasında dilin qənaət prinsipi də mühüm rol oynayır. Dil sistemi sonsuz sayda yeni söz yaratmaq əvəzinə mövcud vahidlərin semantik imkanlarından istifadə etməklə yeni anlayışları ifadə edir. Bu xüsusiyyət dilin həm iqtisadi, həm də kommunikativ baxımdan səmərəli fəaliyyət göstərməsinə imkan verir. Sözün mənası dəyişməz və sabit kateqoriya deyil. Cəmiyyətin inkişafı ilə birlikdə insanların dünyagörüşü, sosial münasibətləri, məişəti, istehsal fəaliyyəti və mədəni təsəvvürləri də dəyişir. Bu dəyişikliklər dilin semantik sistemində öz əksini tapır. Nəticədə əvvəlki dövrlərdə yalnız bir anlayışı bildirən söz sonrakı mərhələlərdə yeni məna qazanaraq çoxmənalı vahidə çevrilə bilər. Bu baxımdan çoxmənalılıq tarixi inkişafın nəticəsi kimi qiymətləndirilə bilər. Sözün müasir semantik quruluşu onun əvvəlki inkişaf mərhələləri ilə sıx bağlıdır. Müəyyən dövrdə yaranmış yeni məna zaman keçdikcə sabitləşə və sözün semantik strukturunun ayrılmaz hissəsinə çevrilə bilər. Dilin lüğət tərkibində baş verən dəyişikliklər yalnız yeni sözlərin meydana gəlməsi ilə məhdudlaşmır. Mövcud sözlərin mənaca yenilənməsi də leksik sistemin inkişafının mühüm istiqamətlərindən biridir. Bu səbəbdən dilin tarixi öyrənilərkən sözlərin yalnız formal xüsusiyyətləri deyil, onların müxtəlif dövrlərdə ifadə etdikləri mənalar da nəzərə alınmalıdır. İctimai həyatın dəyişməsi sözlərin yeni məna qazanmasına mühüm təsir göstərir. Elm, texnologiya, iqtisadiyyat, mədəniyyət və sosial münasibətlərdə yaranan yeniliklər yeni anlayışların ifadəsini tələb edir. Dil bu ehtiyacı mövcud sözlərin semantik imkanlarını genişləndirməklə də qarşılayır. İnsan təfəkküründün assosiativ xüsusiyyəti də burada

mühüm rol oynayır. İnsanlar müxtəlif obyekt və hadisələri onların oxşar və fərqli cəhətləri əsasında müqayisə edir. Bu müqayisə nəticəsində bir anlayışı bildirən söz başqa anlayışın ifadəsində işlənə bilər. Bundan başqa, dilin qənaət prinsipi də çoxmənalılığın inkişafını şərtləndirir. Mövcud sözün yeni məna qazanması bəzi hallarda yeni söz yaratmaq ehtiyacını aradan qaldırır. Beləliklə, dil həm struktur baxımından, həm də kommunikativ baxımdan daha qənaətli şəkildə fəaliyyət göstərir. Ferdinand de Sössür dilin işarələr sistemi kimi fəaliyyət göstərdiyini vurğulayaraq sözün mənasının yalnız onun maddi formasından deyil, dil sistemindəki digər vahidlərlə münasibətindən yarandığını göstərmişdir. Bu baxımdan çoxmənalılıq sözün mənasının dil sistemi daxilində dəyişkən və əlaqəli xarakter daşıdığını nümayiş etdirir.Leonard Blumfild dilin struktur xüsusiyyətlərini ön plana çəkərək söz mənasının onun işlənmə mühiti və kontekstdəki funksiyası ilə əlaqəsini əsaslandırmışdır. Bu yanaşma çoxmənalı sözlərdə yeni mənaların yaranmasında kontekstin və nitq şəraitinin rolunu izah etməyə imkan verir. Cefri Liç isə leksik mənanın struktur və funksional xüsusiyyətlərini araşdıraraq söz mənasının kontekst, istifadə və assosiativ əlaqələr əsasında genişlənə bildiyini göstərmişdir. Bu baxımdan metaforik və metonimik köçürmələr çoxmənalılığın yaranmasının əsas mexanizmləri sırasında mühüm yer tutur.

Çoxmənalılığın yaranmasında məcazlaşmanın rolu

Məcazlaşma çoxmənalılığın formalaşmasının mühüm mexanizmlərindən biridir. Məcazlaşma zamanı sözün ilkin mənası ilə yeni məna arasında müəyyən oxşarlıq, yaxınlıq və ya funksional əlaqə meydana çıxır. Bu əlaqə nəticəsində söz öz ilkin semantik çərçivəsindən kənara çıxaraq yeni anlayışın ifadəsində işlənməyə başlayır.Məcazi mənanın formalaşması əşya və hadisələrin müxtəlif xüsusiyyətlərinin insan təfəkküründə müqayisə edilməsi ilə bağlıdır. Forma, rəng, ölçü, funksiya, mövqe, hərəkət və digər xüsusiyyətlər belə semantik köçürmənin əsasında dayana bilər. İlkin mərhələdə kontekstual xarakter daşıyan məna zaman keçdikcə ümumiləşərək dil sistemində sabitləşə bilər.Beləliklə, məcazlaşma nəticəsində meydana çıxan yeni məna artıq yalnız fərdi nitq istifadəsi ilə məhdudlaşmır və ümumi dil vahidinə çevrilir. Bu proses çoxmənalı sözlərin semantik strukturunun genişlənməsinə səbəb olur. Çoxmənalılığın yaranmasını yalnız bir amillə izah etmək mümkün deyil. Bu prosesdə həm məntiqi, həm də dil amilləri qarşılıqlı şəkildə iştirak edir (Cəfərov, 2007, s. 89). Məntiqi amil müxtəlif anlayışlar arasında ümumi və oxşar xüsusiyyətlərin mövcudluğunu nəzərdə tutur. Dil amili isə həmin oxşarlığın konkret leksik vahid vasitəsilə ifadə olunması ilə bağlıdır. Obyektiv gerçəklikdəki əşya və hadisələr müxtəlif münasibətlər sistemində mövcuddur (Qasımlı, 2025, s. 198). Onların arasında forma, funksiya, məkan, zaman, səbəb-nəticə və digər əlaqələr yarana bilər. İnsan təfəkkürü bu əlaqələri müəyyənləşdirərək müxtəlif anlayışları bir semantik məkan daxilində birləşdirir. Dil isə həmin əlaqələrin ifadəsi üçün mövcud sözlərin imkanlarından

istifadə edir.Nəticədə bir sözün semantik strukturu genişlənir və yeni məna variantları meydana gəlir. Bu prosesdə sözün işlənmə tezliyi, ünsiyyətdəki fəallığı, başqa sözlərlə əlaqəyə girmək imkanları və dil sistemindəki funksional mövqeyi də mühüm rol oynayır.Çoxmənalı sözün bütün mənaları eyni dərəcədə müstəqil xarakter daşımır. Bəzi mənalar geniş söz qrupları ilə əlaqəyə girərək müxtəlif kontekstlərdə sərbəst şəkildə işlənə bilir. Digər mənaların isə işlənmə dairəsi daha məhdud olur və onlar yalnız müəyyən söz birləşmələri və ya ifadələr daxilində özünü göstərir (Həsənov, 2001, s. 73). Bu baxımdan leksik mənalar müstəqil və qeyri-müstəqil xüsusiyyətlərə görə fərqləndirilə bilər. Sözün əsas nominativ mənası, adətən, daha geniş işlənmə imkanına malik olur. Məcazlaşma nəticəsində yaranmış bəzi mənalar isə müəyyən kontekst və birləşmələrlə məhdudlaşa bilər.Xüsusilə frazeoloji birləşmələrdə sözün semantik xüsusiyyətləri dəyişir. Belə hallarda sözün ifadə etdiyi məna onun sərbəst işlənmə zamanı daşıdığı mənadan fərqli xüsusiyyət qazanır. Bu səbəbdən çoxmənalılığın araşdırılması zamanı sözün yalnız lüğəvi mənasını deyil, onun müxtəlif kontekstlərdəki funksional xüsusiyyətlərini də nəzərə almaq zəruridir. Metaforik köçürmə zamanı adətən forma, rəng, ölçü, hərəkət, xarici görünüş və digər xüsusiyyətlər əsas götürülür. İnsan müəyyən obyektin xüsusiyyətini başqa obyektə aid etməklə yeni məna yaradır. Başlanğıcda fərdi və kontekstual xarakter daşıyan belə istifadə zaman keçdikcə ümumiləşə və dilin sabit leksik-semantik sisteminə daxil ola bilər. Metonimik köçürmə isə obyekt və hadisələr arasında yaxınlıq münasibətinə əsaslanır. Məkan, zaman, səbəb, nəticə, müəllif və əsər, material və məhsul kimi münasibətlər yeni mənaların formalaşmasına şərait yarada bilər. Beləliklə, məcazlaşma və digər semantik köçürmələr sözlərin semantik strukturunun genişlənməsində mühüm rol oynayır. Azərbaycan dilində çoxmənalı leksik vahidlərin formalaşması dilin tarixi inkişaf prosesi ilə sıx bağlıdır. Bu prosesdə xalqın milli-mədəni dünyagörüşü, sosial həyatı və müxtəlif tarixi dövrlərdə meydana gələn ictimai dəyişikliklər mühüm rol oynamışdır. Türk dillərinin qədim yazılı və leksik materiallarının təhlili də sözlərin ilkin semantik məzmunundan yeni mənaların inkişaf etdiyini və bu mənalar arasında tarixi-semantik bağlılığın uzun müddət qorunduğunu göstərir. Sözün semantik quruluşunda baş verən dəyişikliklər dilin tarixi inkişafı, ictimai münasibətlərin yenilənməsi və insanların dünyanı qavrama xüsusiyyətləri ilə sıx bağlıdır. Dilin inkişafı zamanı müəyyən sözlər yalnız mövcud anlayışların ifadəsi ilə məhdudlaşmır, yeni predmet, hadisə və münasibətlərin adlandırılmasında da istifadə olunur. Bu zaman sözün əvvəlki mənası ilə yeni yaranan məna arasında müəyyən əlaqə qorunub saxlanılır və həmin əlaqə yeni semantik variantın formalaşması üçün əsas yaradır. Başlanğıc mərhələdə yalnız müəyyən nitq şəraitində və konkret kontekstdə müşahidə olunan məna sonrakı mərhələlərdə daha geniş istifadə dairəsinə daxil ola bilər. İstifadə tezliyinin artması və müxtəlif kommunikativ mühitlərdə yayılması həmin mənanın dil daşıyıcıları tərəfindən qəbul edilməsinə və semantik sistemdə sabitləşməsinə gətirib çıxarır.Sözün yeni məna qazanması ilə onun semantik imkanları genişlənir və eyni leksik vahid müxtəlif məzmunların ifadəsində iştirak etməyə

başlayır. Bu proses xüsusilə cəmiyyətin sosial və mədəni həyatında mühüm dəyişikliklərin baş verdiyi dövrlərdə daha aydın müşahidə olunur. Yeni fəaliyyət sahələrinin yaranması, elmi və texnoloji inkişaf, mədəni əlaqələrin genişlənməsi və ictimai münasibətlərin dəyişməsi mövcud sözlərin yeni anlayışların ifadəsinə cəlb edilməsinə şərait yaradır. Beləliklə, dil öz daxili resurslarından istifadə etməklə yeni kommunikativ tələbatlara uyğunlaşır. Çoxmənalılığın yaranması və inkişafı sözlərin müxtəlif kontekstlərdə yeni məna çalarları qazanması ilə sıx bağlıdır. Bu prosesdə məcazlaşma, assosiativ əlaqələr və məna dəyişmələri mühüm rol oynayır. Stephen Ullmannın semantika sahəsindəki araşdırmaları məna dəyişmələrinin və semantik inkişafın nəzəri əsaslarının öyrənilməsi baxımından əhəmiyyətlidir (Ullmann, 1957, s. 36). Dirk Geeraertsin leksik semantiyaya dair tədqiqatları isə söz mənasının strukturunu və leksik mənanın izahına müxtəlif nəzəri yanaşmaları sistemli şəkildə araşdırmağa imkan verir (Geeraerts, 2010, s. 4).

Çoxmənalılığa sinxronik və diaxronik yanaşma

Çoxmənalılığın öyrənilməsində sinxronik və diaxronik yanaşmalar bir-birini tamamlayır. Sinxronik yanaşma sözün müəyyən zaman mərhələsində malik olduğu mənalar sisteminin öyrənilməsinə əsaslanır. Bu baxımdan sözün müxtəlif mənaları arasında mövcud olan semantik əlaqələr müəyyən edilir və söz vahidinin ümumi məna strukturu təsvir olunur (Qurbanov, 2003, s. 56). Diaxronik yanaşmada isə əsas diqqət sözün mənalarının zaman ərzində necə yarandığına və dəyişdiyinə yönəldilir. Burada ilkin məna ilə sonrakı mənalar arasındakı tarixi əlaqə araşdırılır. Müəyyən dövrdə törəmə hesab edilən məna sonrakı mərhələdə geniş istifadə nəticəsində müstəqil semantik xüsusiyyət qazana bilər. Sinxronik və diaxronik yanaşmaların birlikdə tətbiqi çoxmənalı sözün semantik quruluşunu daha dolğun şəkildə izah etməyə imkan verir. Çünki sözün müasir mənalarının sistemini müəyyənləşdirməklə yanaşı, həmin mənaların hansı tarixi proseslər nəticəsində yarandığını da aydınlaşdırmaq mümkündür. Çoxmənalılıq müxtəlif dillərin leksik sistemlərində geniş yayılmış universal semantik hadisələrdən biridir (Məmmədli, 2022, s. 97). Azərbaycan və ingilis dillərində də bir çox sözlərin ilkin mənadan inkişaf edən əlavə mənalar qazandığı müşahidə olunur (Bayramov, 2010, s. 44). Hər iki dildə bu prosesdə məcazlaşma, semantik genişlənmə, funksional yaxınlıq və obyektlər arasındakı oxşarlıq mühüm rol oynayır. Bununla yanaşı, konkret çoxmənalı sözlərin semantik quruluşu hər bir dilin tarixi inkişafı, milli-mədəni xüsusiyyətləri və dil sistemi ilə bağlı olaraq fərqlənə bilər. Eyni anlayış müxtəlif dillərdə müxtəlif semantik modellərlə ifadə oluna bilər (Kərimova, 2021, s. 34). Buna görə də dillərarası müqayisə zamanı yalnız sözlərin zahiri uyğunluğuna deyil, onların hər bir dildə yaratdığı məna əlaqələrinə diqqət yetirilməlidir. Azərbaycan dilində çoxmənalılığın qədim dil qatlarından etibarən formalaşdığı və dilin tarixi inkişaf mərhələlərində yeni semantik xüsusiyyətlərlə zənginləşdiyi qeyd edilir. Türk dillərinin tarixi materialları da sözlərin ilkin və törəmə mənaları

arasında əlaqələrin qədim dövrlərdən mövcud olduğunu göstərir. Lakin ayrı-ayrı leksik vahidlərin məna baxımından inkişafı bütün dillərdə eyni istiqamətdə getmir. Bu proses hər bir dilin tarixi inkişaf yolu, milli-mədəni xüsusiyyətləri və daxili struktur sistemi ilə şərtlənir. Eyni məfhum müxtəlif dillərdə fərqli semantik vasitələr və modellər əsasında ifadə edilə bilər. Bu baxımdan dillərin müqayisəli tədqiqi zamanı yalnız sözlər arasındakı formal və zahiri uyğunluqların müəyyənləşdirilməsi kifayət etmir; onların semantik əlaqələri, məna çalarları və müxtəlif nitq situasiyalarında işlənmə xüsusiyyətləri də kompleks şəkildə araşdırılmalıdır. Çoxmənalılıq sözün semantik quruluşunda müxtəlif məna komponentlərinin qarşılıqlı əlaqəsi əsasında meydana gələn mürəkkəb dil hadisəsidir. Sözün semantik tutumu onun yalnız ilkin mənası ilə müəyyənləşmir, müxtəlif tarixi mərhələlərdə qazandığı əlavə mənalarla da zənginləşir. Ayrı-ayrı mənaların formalaşması təsadüfi xarakter daşımır və onların arasında müəyyən məntiqi-semantik bağlılıq müşahidə olunur. Sözün yeni məna əldə etməsi əksər hallarda onun əvvəlki mənası ilə əlaqənin qorunması əsasında baş verir. İlkin məna ilə sonradan yaranan mənalar arasında semantik keçid mərhələlərinin mövcudluğu çoxmənalılığı omonimiyadan fərqləndirən əsas xüsusiyyətlərdən biridir. Bu baxımdan çoxmənalı sözlərin semantik quruluşunun müəyyənləşdirilməsi onların mənaları arasındakı əlaqələrin araşdırılmasını tələb edir. Dil vahidlərinin semantik dəyişməsi uzunmüddətli tarixi prosesin nəticəsi kimi meydana çıxa bilər. Müəyyən sözün əvvəlcə yalnız məhdud kontekstdə işlənən əlavə mənası sonrakı mərhələdə geniş yayılaraq ümumişlək məna xüsusiyyəti qazana bilər. Belə semantik dəyişmələr nəticəsində sözün istifadə dairəsi genişlənir və onun kommunikativ imkanları artır. Müasir dilin leksik tərkibində işlənən çoxmənalı sözlərin bir qismi uzun tarixi inkişaf nəticəsində formalaşmışdır. Onların semantik quruluşunun araşdırılması dilin qədim və müasir mərhələləri arasında mövcud olan əlaqələri üzə çıxarmağa imkan verir. Tarixi leksik materialların müqayisəsi sözlərin mənaca necə dəyişdiyini və hansı istiqamətlərdə inkişaf etdiyini müəyyənləşdirmək baxımından əhəmiyyətlidir. Çoxmənalılıq həmçinin dilin ifadə vasitələrinin iqtisadi və səmərəli istifadəsini təmin edir. Eyni leksik vahidin müxtəlif anlayışları ifadə edə bilməsi yeni anlayışların adlandırılması üçün ayrıca dil vahidlərinin yaradılması zərurətini müəyyən hallarda azaldır. Bununla da dilin mövcud leksik ehtiyatından daha geniş şəkildə istifadə olunur. Çoxmənalılıq leksik semantikanın əsas problemlərindən biri olmaqla, sözün semantik strukturunda bir-biri ilə əlaqəli bir neçə mənanın mövcudluğu ilə səciyyələnir. Bu hadisənin mahiyyətinin müəyyənləşdirilməsi söz mənasının strukturunun, məna komponentləri arasındakı əlaqələrin və semantik dəyişmə mexanizmlərinin araşdırılmasını tələb edir. Con Lyonsun semantika üzrə tədqiqatları dil vahidlərinin məna xüsusiyyətlərinin və semantik münasibətlərin nəzəri baxımdan öyrənilməsi üçün mühüm əsas yaradır (Lyons, 1977, s. 36). D. A. Cruse isə leksik semantika çərçivəsində söz mənalarının təşkili və leksik vahidlər arasındakı semantik əlaqələrin təhlilinə xüsusi diqqət yetirir (Cruse, 1986, s. 2).

Müxtəlif dillərdə çoxmənalılığın yaranma yolları arasında oxşar cəhətlər olsa da, semantik dəyişmələrin istiqaməti və nəticələri eyni olmaya bilər. Bu fərqlər dillərin tarixi inkişaf xüsusiyyətləri, mədəni mühiti və dil daşıyıcılarının dünyanı konseptuallaşdırma üsulları ilə əlaqələndirilir. Azərbaycan və ingilis dillərinin müqayisəsi bu baxımdan həm ümumi, həm də spesifik semantik xüsusiyyətlərin müəyyənləşdirilməsi üçün əlverişli material təqdim edir. Çoxmənalılığın yaranmasında insanın ətraf aləmi qavrama və obyektlər arasında əlaqələr yaratma xüsusiyyəti xüsusi əhəmiyyət daşıyır. İnsan şüurunda formalaşan müxtəlif assosiasiyalar dil vahidlərinin yeni anlayışların ifadəsinə cəlb edilməsinə şərait yaradır. Bu proses nəticəsində konkret anlayışı bildirən söz zaman keçdikcə mücərrəd və ya digər məzmunlu anlayışların ifadəsində də istifadə oluna bilər. Semantik dəyişmələr yalnız dilin daxili qanunları ilə məhdudlaşmır. İctimai həyatdakı yeniliklər, peşə və fəaliyyət sahələrinin inkişafı, mədəni əlaqələrin genişlənməsi və yeni bilik sahələrinin yaranması sözlərin məna strukturuna təsir göstərə bilir. Belə şəraitdə əvvəlki sözlər yeni məzmunların ifadəsi üçün yenidən funksionallaşır. Corc Lakoff və Mark Consonun konseptual metafora nəzəriyyəsi isə çoxmənalılığın yaranmasında metaforik düşüncənin rolunu ön plana çıxarır. Onların fikrincə, insan abstrakt anlayışları çox zaman konkret təcrübə və obrazlar vasitəsilə dərk edir. Bu proses dil vahidlərinin ilkin mənalarından törəyən yeni, məcazi mənaların formalaşmasına şərait yaradır.

Nəticə

Aparılan təhlil göstərir ki, çoxmənalılıq dilin leksik-semantik sisteminin inkişafını təmin edən mühüm mexanizmlərdən biridir. Bu hadisə sözlərin yalnız yeni məna qazanması ilə məhdudlaşmır, eyni zamanda dilin nominativ, kommunikativ və ifadə imkanlarının genişlənməsinə xidmət edir. Çoxmənalı sözlərin formalaşması uzunmüddətli tarixi prosesin nəticəsidir. Sözün yeni məna qazanmasına cəmiyyətin sosial və mədəni inkişafı, insan fəaliyyətinin müxtəlif istiqamətləri, obyekt və hadisələr arasındakı oxşarlıq, məntiqi əlaqələr, məcazlaşma və dilin daxili qanunauyğunluqları təsir göstərir. Çoxmənalılığın öyrənilməsi zamanı sözün ayrı-ayrı mənələrinin təsviri ilə kifayətlənmək olmaz. Həmin mənələrin bir-biri ilə əlaqəsi, semantik strukturda tutduğu mövqe və tarixi yaranma ardıcıllığı da nəzərə alınmalıdır. Bu baxımdan sinxronik və diaxronik yanaşmaların birgə tətbiqi mühüm metodoloji əhəmiyyət daşıyır. Nəticə etibarilə, çoxmənalılıq dilin dəyişkən və dinamik xarakterini nümayiş etdirən əsas leksik-semantik hadisələrdən biri kimi qiymətləndirilə bilər. Sözlərin yeni məna qazanması dilin tarixi inkişafının təbii nəticəsi olmaqla yanaşı, cəmiyyətin dəyişən kommunikativ ehtiyaclarına uyğunlaşmasının da göstəricisidir.

Ədəbiyyat

Abdullayev, Ə. (1985). *Müasir Azərbaycan dilinin leksikologiyası*. Maarif.

Abdullayev, N. (2013). *Azərbaycan dilinin üslubiyyatı*. Elm və təhsil.

Bayramov, Ə. (2010). *Azərbaycan dilinin semasiologiyası*. Azərbaycan Universiteti nəşriyyatı.

Cəfərov, S. (2007). *Müasir Azərbaycan dili* (Hissə 2, 3-cü nəşr). Şərq-Qərb.

Cruse, D. A. (1986). *Lexical semantics*. Cambridge University Press.

Geeraerts, D. (2010). *Theories of lexical semantics*. Oxford University Press.

Həsənov, H. (2001). *Müasir Azərbaycan dilinin leksikası*. Nurlan.

Kərimova, Ş. (2020). Çoxmənalı sözlərin pragmatik xüsusiyyətləri. In *Hümanitar və ictimai elmlərin əsasları: I Respublika elmi konfransının materialları* (s. 72–74).

Kərimova, Ş. (2021). Tədris prosesində çoxmənalılığın kommunikativlik məsələləri. In *Xarici dillərin tədrisinin aktual problemləri: Elmi konfransın materialları* (s. 134–135).

Lyons, J. (1977). *Semantics* (Vols. 1–2). Cambridge University Press.

Məmmədli, N. (2022). *Azərbaycan dili və nitq mədəniyyəti* (Cild 2: Leksikologiya, leksikoqrafiya, leksik norma).

Qasımlı, L., & Pirməmmədova, A. (2025). Leksik semantika və məınanın kontekstdə şərhi. *Filologiya məsələləri*, (8), 198–200.

Qurbanov, A. (2003). *Müasir Azərbaycan ədəbi dili* (Cild 1). Nurlan.

Ullmann, S. (1957). *The principles of semantics* (2nd ed.). Basil Blackwell.